AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**FAKÜLTƏ: İQTİSADİYYAT VƏ İDARƏETMƏ**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**
**kafedrasının müdiri, i.ü.f.d., dos. E. Q. Məmmədov**
**2025-cı il**
**Protokol №05**

**"SOSİAL İŞDƏ TƏDQİQAT METODLARI"**
**FƏNNİ ÜZRƏ**

# İŞÇİ TƏDRİS PROQRAMI

**(S İ L L A B U S)**

## FƏNN HAQQINDA MƏLUMAT

**Fənnin kodu:** 00811
**Fənnin növü:** əsas
**Tədris ili:** 20242025
**Fənnin tədris semestri:** yaz
**Fənnin tədris forması:** əyani
**Tədris dili:** azərbaycan
**Qrup:**
**Kafedra:** "İctimai idarəetmə və sosial innovasiyalar"
**Tədris yükü:** 60 (30/30) saat
**Kredit sayı:** 6

## MÜƏLLİM HAQQINDA MƏLUMAT

**Fənni tədris edən müəllim:** dos. İbrahim Q.Quliyev
**E-mail ünvan:** *i.quliyev68 @mail.ru*
**İş telefonu:**
**Tələbələr üçün qəbul vaxtları:** həftənin V günü, saat 12.00-14.00

## Fənnin təsviri

Bu fənn sosioloji tədqiqatın strukturu və təşkili, onun proqramı va işçi plani, ilkin informasiyanin toplanilmasi metodlari, empirik məlumatların emali, təhlili və ümumiləşdirilməsi haqqında bütöv, sistemli təsəvvürə malik olmaq üçün metodoloji və metodiki biliklərə yiyələnməyi öyradir.

## Fənnin məqsəd və vəzifələri

Kursda müxtəlif sahələrinin elmi-nəzəri və praktik baxımından sosial praktikada əks olunması prosesi təhlil olunur, ictimai elmlər sistemində problemin formalaşması və meydana gəlməsi xüsusiyyətləri izah olunur. Burada sosial praktika ilə əlaqəni və bağlılığını təmin etmək məqsədilə referatların mövzuları, fərdi işin əsas tələbləri və istiqamətləri, digər tədris formaları istifadə olunur, xüsusi kurs müasir elmi ədəbiyyatla, digər lazımi məlumatlarla təchiz olunmuşdur. Fənnin öyrənilməsi zamanı tələbələr lazımlı informasiyanı müstəqil tapmağı və təhlil etməyi, elmi problemləri düzgün ifadə etməyi bacarmalı, lazımlı metodların bütün spektrindən istifadəsini dərk etməyə və alınmış nəticələri izah etməyə, araşdırmalar keçirməyi öyrənməlidirlər

Fənnin tədrisi qarşısında duran vəzifələr:

- Sosial işdə tədqiqat metodları anlayışları və prinsipləri ilə tanışlıq;
- sosial işin ən əhəmiyyətli nəzəri paradiqmalar haqqında biliklər;
- sosial işin əsas prinsipləri və qanunauyğunluqları haqqında biliklər;
- sosial işin mahiyyəti, istiqamətləri, səviyyələri, formaları və metodlarının məzmunu haqqında təsəvvürlərin formalaşması
- Azərbaycanda sosial işin inkişafının sosial siyasətdə rolunun anlaması;
- Azərbaycanda sosial dövlətin əmələ gəlmə proseslərini təhlil etmək bacarığı.

## Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, şifahi təqdimat, fərdi işləmə, komanda şəklində məsələrin həlli, kiçik qruplarda iş, işgüzar oyunlar, tapşırıqların yerinə yetirilməsi, xüsusi nümunələrin öyrənilməsi və təhlili, test tapşırıqlarının yerinə yetirilməsi kimi tədris üsullarından istifadə edilir.
Tədris və təlim prosesində yerli və xarici ədəbiyyatlardan, internet resurslarından götürülmüş materialların, nümunələrin və keyslərin müzakirəsinə və həlli yollarının tapılmasına istiqamət verilərək, diqqət ayrılacaq. Biliklərin tətbiqi bacarıqlarını formalaşdırmaq üçün tələbələrə mövzuya aid tapşırıqlar həll edəcəklər.

Yeni mövzunun tədrisindən qabaq tələbələrə tapşırılmış materiallar ilə tanış olunmalıdır.

Bu fann sosioloji tadqiqatin strukturu va taykili, onun proqrama va iygi plani, ilkin informasiyanin toplanilmasi metodlari, empirik malumatlarin email, tahlili va umumilaydirilmasi haqqinda biitdv, sistemli tasavvura malik olmaq tigun metodoloji va metodiki biliklara yiyalanmayi dyradir.

## Fənnin tədrisinin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr-

***Bilməlidirlər:***

- sosial qruplarin tədqiqiqinin metodoloji məsələlərini;
- qruplararasi munasibatlarin idara olunmasinin psixoloji məsələlərini;
- sosial işin əsas metodları və texnologiyalarını;
- sosial işin muasir tədqiqat istiqamətlərini umum-metodoloji aspektlərini;
- sosial işçi-tədqiqatçının rolunu, funksiyalarını və vəzifələrini;
- sosial işin təşkili mexanizmlərinin müəyyən edilməsinə praktiki yanaşmaları;
- Sosial işin fundamental konsepsiyalarını;

***Bacarmalıdırlar:***

- mtixtəlif metodlarla müştərinin fərdi-psixoloji xüsusiyyətlərini qiymətləndirməyi;
- sosial problemlərin vəı cüsusiyyətlərin aşkar edilməsi üçün tədqiqatın hazırlanmasını və həyata keçirilməsini;;
- mtixtalif proqramlardan istifada edərək informasiya toplaya və bu informasiyani emal etməyi;
- sosial işin mənbələri və təşkili mexanizmlərinin müəyyən edilməsinə nəzəri və praktik yanaşmaları tətbiq etməyi;
- sosial işin əsas metodların və texnologiyalarının reallaşdırması ilə bağlı məqsəd qoymaq və vəzifələri ifadə etməyi;
- sosial iş sahəsində vəziyyəti və fəaliyyətin inkişafı tendensiyalarını təhlil etməyi.

***Yiyələnməlidirlər:***

Tədrisin nəticəsində tələbələr etibarli və mötəbər emprik nəticələrin əldə edilməsinin, tədqiqat metodologiyasinin və metodikasinin əsaslarını mənimsəməli, bu sahədəki problemlər haqqinda təsəvvürə malik olmalı, peşəkar sosial işçi-tədqiqatçının peşə vərdişlərinə yiyələnməlidir.

**Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| № | Mövzunun adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **Sosial işdə istifadə oluna nempirik məlumatların strukturu** | Məntiqi və riyazi formalizasiya haqqında anlayış. Empirik sosiologiyada statistik və humanitar yanaşmaların (ənənələrin, paradiqmaların) mövcudluğu üçün əsaslar. «Empirik interpretasiya». Məlumatların analizinin alçalan strategiyası. Məlumatların analizinin yüksələn strategiyası. | Sosial işin əsasları. Müntəxəbat. I hissə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 359 s.<br><br>Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014 |
| 2 | **Obyektin xüsusiyyətlərinin öyrənilməsi** | Sualların məntiqi zənciri: Nəyi öyrənməli? Nəyə görə və hansı məqsədlər üçün öyrənməli? Harada və hansı şərtlər altında öyrənməli? Hansı vasitələrlə öyrənməli? Modal anlayışı. Ailənin "maddi təminatı", tələbənin "siyasi aktivliyi", rayonun prestiji. Xüsusiyyətlər, dəyişənlər, əlamətlər – anlayışların qarşılıqlı əlaqəsi. | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014<br><br>Əfəndiyev M., Şirinov A. Sosiologiyanın nəzəri problemləri. Bakı: 2001 |

| | | | |
|---|---|---|---|
| 3 | **Empirik məlumatların növləri** | İnformasiya tiplərini ayırmaq üçün əsaslar. İnformasiya tipləri: dövlət statistikası; “sadə” strukturlu anketin köməyi ilə əldə olunmuş məlumatlar; “mürəkkəb” strukturlu anketin köməyi ilə əldə olunmuş məlumatlar. | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014 |
| 4 | **Mətn məlumatları və kontent təhlil** | Sosioloji informasiya mənbələri. Analiz obyektləri. İnformasiyanın mövcudluq formaları. İnformasiya tipləri və məqsədləri, hansılarına ki, nail olmaq üçün bu və ya digər tipdən istifadə olunur. Kontent təhlilin üstünlükləri. Kontent təhlil metodikanın mərhələləri | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014 |
| 5 | **Şkalalar. Kodlaşdırma ölçmə prosedurası kimi** | Ölçmə nə deməkdir? Ölçməni analizdən ayırmaq olarmı? Şkala anlayışı. Nominal, sıra, «metrik» şkalalar. Ölçmə kodlaşdırma kimi. Psevdometriklik. Faktiki və fiziki şkala tipləri. Sosioloji «sıfır» problemi. | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014 |
| 6 | **Məlumatların yığımının və analizinin indeksləri** | Vasitəli ölçmə. İndekslərin ölçmə üsulu və empirik informasiyanın analizinin tərkib hissəsi kimi qurulması. Məntiqi kvadrat. Məntiqi düzbucaqlı. Yekun qiymətlərin şkalası. Dövlət statistikasında, mətn informasiyasında indekslər. | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014 |
| 7 | **Sosial istiqamətlənmənin spesifik üsulları** | Lui Terstounun şkalası. Emari Boqardusun şkalası.<br>Lui Quttmanın şkaloqram analizi.<br>Laykert və Terstounun şkalalarının oxşarlığı və fərqi.<br>Boqardus və Quttmanın şkalalarının oxşarlığı və fərqi. | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014<br><br>Yıldırım, A.,Şimşek, H. (2006).Sosyal Bilimlerde Nitel Araştırma Yöntemleri. |
| 8 | **Ranjirləmə proseduru** | Ranjirləmə obyektləri. Ranjirləmənin əsası. Bir-biriilə bağlı ranqlar. Ranjirləmə analizin tərkib hissəsi kimi. Ranjirləmə ölçmə üsulu kimi. Birbaşa ranjirləmə. Terstounun cüt-cüt müqayisə metodu. Tranzitivlik xüsusiyyəti. Ranjirləmə modellərinin müqayisəsi. | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014 |

| | | | |
|---|---|---|---|
| 9 | **Proyektiv metodlar** | Psixosemantik metod bir ölçmə üsulu ilə bir analiz üsulu kimi. Ç.Osqudun semantik differensialı. Tamamlanmış cümlə metodu sosial ümidlərin və sosial stereotiplərin öyrənilməsi üçün bir üsul kimi. 20 «Mən» testi şəxsiyyətin özünü identifikasiyasının öyrənilməsinin bir üsulu kimi. | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014 |
| 10 | **Diaqnostika və müalicə metodları** | Diaqnostikanın mahiyyəti. Müalicə metodları. Psixiloji diaqnostika üsulları. Diaqnostikanın xarakteri və korreksiyanın istiqaməti. Psixoloji korreksiyanın effektivliyi. Korreksiya metodikaları və texnikaları | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014 |
| 11 | **Sosial işin tədqiqində idarəetmə metodları** | İdarəetmə metodologiyası. Universal, ümumi və xüsusi metodlar. İqtisadi metod və onun xüsusiyyətləri. İnzibati (normativ-sərəncam) metod və onun mahiyəti. Əmr, sərəncam, göstəriş. Sosial-psixoloji metod və onun əsas xüsusiyyətləri. | Qəşəmoğlu Ə. Sosial idarəetmənin fəlsəfi və psixoloji problemləri. Bakl-2008.<br><br>Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014<br><br>Musabəyov R. Dövlət və cəmiyyət. Bakı-2006. |
| 12 | **Tətbiqi sistem analizində metodoloji yanaşmalar** | Sadə və mürəkkəb sistemlər. R.Flad və M.Ceksonda sistem analizinin metodologiyası. V. Çerçmenin strateji qənaətlər metodologiyası. S.Virin yaşamağa qadir sistemlərin metodologiyası. R.Akoffun interaktiv planlaşdırmanın metodologiyası. P.Çeklendin “yumşaq” sistemlər metodologiyası. V.Ulrixin tənqidi sistemlər metodologiyası. V.Ulrixin disskusiyaların keçirilməsinə dair tövsiyyələri. Sistem analizinin nəticələrinin tətbiqi. | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014<br><br>M.Mahmudov, Z.Şabanov, F.Q.Ələkbərov İdarəetmə nəzəriyyəsi. Dərslik. Bakı, «Elm və Təhsil», 2012. |
| 13 | **Fokus qrupların metodologiyası və planlaşdırlması** | Fokus qrupların məzmunu və onun əsas tərəfləri. Fokus qrup görüşlərinin məqsədi. Fokus qrupların vəzifələri. Fokus qrupların dinamikliyi. Fokus | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). |

| | | | |
|---|---|---|---|
| | | qrup görüşlərinin müsbət nəticələri. Fokus qrup görüşlərinin mənfi nəticələri. Fokus qrup görüşlərinin müsbət və mənfi nəticələrinin ümumiləşdirlilməsi. Planlaşdırma nədir. Fokus qruplarda uzaqgörənlik. Fokus qruplarda planlamanın zamanı. Fokus qrupunun mərhələləri. | Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014 |
| 14 | **Fokus qruplar və mühasibələrin keçirilməsi mərhələləri** | Fokus qrupların xüsusiyyətləri haqqında. Insan əməyi və fokus qrupu. Məlumatların toplanması. Fokus qrupların tərkibi. Metodoloji xətalar. Işdə xətalar və onun qiymətləndirilməsi. Analitik xətalar. Fokus qrup çalışmalarının həyata keçirilmə metodları və sahələri. Moderator və onun vəzifələri. İkiyönlü foks qruplar. Iki moderatorlu qruplar. | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014 |
| 15 | **Ekstremal və fövqəladə vəziyyətlərdə davranış və onun tədqiqi metodikası** | Ekstremal vəziyyətlərdə emosiya, münaqişə və böhran problemləri<br>Emosiya<br>Stress və frustrasiya ruhi-əsəb gərginli yi vəziyyəti kimi.<br>Frustrasiyanın formaları.<br>Alli hisslər | Q.Q.Tatarova. Sosiologiyada məlumatların təhlili metodologiyası (giriş). Ali məktəblər üçün dərslik. Bakı, «Turan Nəşrlər evi», 2014<br><br>M.Mahmudov, Z.Şabanov, F.Q.Ələkbərov İdarəetmə nəzəriyyəsi. Dərslik. Bakı, «Elm və Təhsil», 2012. |

## FƏNNİN MÜHAZİRƏ MƏTNLƏRİ

Fənn üzrə bütün mühazirə mətnləri, təqdimatlar, müzakirə sualları və tapşırıqlar elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.unec.edu.az), müəllimin şəxsi kabinetində yerləşdirilmişdir.

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir. Seminar dərsində bal yazılacaq. Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

## UNEC-də təhsilalanların cari və aralıq qiymətləndirilməsi

## QAYDALARI

***Əyani təhsil formması üzrə***

UNEC-də bakalavriat və magistratura səviyyələrində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavr və magistrantların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavr və magistrantların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal fənlərin tədris növünə uyğun olaraq aşağıdakı qaydada formalaşır:

- tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında;
- tədrisi mühazirə, labaratoriya və seminar dərsləri ilə həyata keçirilən fənlərdə laboratoriya işləri yerinə yetirilməsinə görə və seminar dərslərində alınan ballar əsasında;
- tədrisi mühazirə və labaratoriya dərsləri ilə həyata keçirilən fənlərdə laboratoriya işlərinin yerinə yetirilməsi əsasında;
- tədrisi yalnız mühazirə dərsləri ilə həyata keçirilən fənlərdə semestr layihələrinin yerinə yetirilməsi (MBA proqramında dərs zamanı qiymətləndirmə) əsasında;
- qabiliyyət tələb edən fənlərdə fərdi işlərin yerinə yetirilməsi ilə bağlı praktik məşğələ müddətindəki fəaliyyət əsasında.

Hər semestrin əvvəlində bakalavr və magistrantlara təqdim edilən sillabuslarda hər bir fənn üzrə aktivlik balının necə formalaşması qaydası göstərilir.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- **10 bal = 5 bal**
- **9 bal = 4,5 bal**
- **8 bal = 4 bal**
- **7 bal = 3, 5 bal**
- **6 bal = 3 bal**
- **5 bal = 2,5 bal**
- **4 bal = 2 bal**
- **3 bal = 1,5 bal**
- **2 bal = 1 bal**
- **1 bal = 0,5 bal**

**Qeyd:** Fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavr və magistrantlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4) * 20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavr və ya magistrantların cavab verməsi üçün imkan yaradır.

Bakalavr və magistrantlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4) * 20)/10 kimi

hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Aktivlik balının*** - labaratoriya işlərinin yerinə yetirilməsi əsasında formalaşması Əlavə 1-də, semestr layihəsinin yerinə yetirilməsi əsasında formalaşması isə bakalavriat səviyyəsi üzrə Əlavə 2-də, magistratura səviyyəsi üzrə isə (MBA proqramı istisna olmaqla) Əlavə 3-də müəyyən edillmiş qaydada təmin edilir.

- Qabiliyyət tələb edən fənlər üzrə bakalavrların aktivlik balı onların praktik məşğələlər zamanı fərdi iş tapşırıqlarının yerinə yetrilməsi ilə bağlı fəaliyyəti əsasında kumulyativ formalaşır. Magistrantların aktivlik balı isə onların yerinə yetridikləri layihənin qiymətləndirilməsi əsasında təmin olunur.

***Ara qiymətləndirmə*** - hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.
Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.
Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.
***Aralıq qiymətləndirmə*** - test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.
Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.
Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.
Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.
Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

Tədris növlərinə müvafiq olaraq fənlər üzrə ***cari və aralıq qiymətləndirmə*** aşağıdakı qaydada və bal nisbətlərində həyata keçirilir:

- Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır;
- Tədrisi mühazirə, seminar və labaratoriya dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 10 balı aktivlik balı hesabına (10 bal = 2,5 bal nisbətində seminar dərsində toplanan bal), 10 balı Əlavə 1-də müəyyən edilmiş qaydada laboratoriya işlərinin yerinə yetirilməsi hesabına, 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşdırılır;
- Tədrisi mühazirə və labaratoriya dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı müəyyən edilmiş qaydada laboratoriya işlərinin yerinə yetirilməsi hesabına, 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşdırılır.
- Türk dünyası iqtisad fakültəsində cari qiymətləndirmə üzrə 50 balın 20 balı Əlavə 2-də müəyyən edilən qaydada yerinə yetirilən bir layihənin qiymətləndirilməsi, 30 balı isə test və ya yazılı üsulda keçirilən ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşdırılır;
- Beynəlxalq magistratura və doktorantura mərkəzində cari qiymətləndirmə üzrə 50 balın 20 balı Əlavə 3-də müəyyən edilən qaydada yerinə yetirilən bir layihənin qiymətləndirilməsi, 30 balı isə yazılı üsulda keçirilən ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşdırılır;
- Qabiliyyət tələb edən fənlər üzrə cari qiymətləndirmənin 50 balının 20 balı tələbələrin aktivlik balı (praktik məşğələ zamanı tapşırıqların icrası əsasında müəyyən edilir) hesabına formalaşdırılır. Qalan 30 bal isə semestr ərzində (hər ay 2 iş olmaqla) Əlavə 4-də qeyd olunan qaydada yerinə yetirilən və hər biri 5 balla qiymətləndirilən 6 fərdi işin qiymətləndirilməsi əsasında təmin edilir. Əlavə bal almaq üçün 7-ci fərdi işin təqdim edilməsinə icazə verilmir. Aralıq qiymətləndirmə üzrə 50 bal isə 180 dəqiqə müddətində keçirilən sessiya imtahanı ərzində çəkilən 1 rəsmin qiymətləndirilməsi əsasında təmin edilir. Bu imtahan nəticələri sistemə aidiyyəti kafedra tərəfindən daxil edilir.

- UNEC Biznes məktəbində cari qiymətləndirmə üzrə 50 balın 20 balı müəyyən edilən qaydada yerinə yetirilən bir layihənin qiymətləndirilməsi, 15 balı aktivlik balı (hər dərsdə maksimal 1 bal olmaq şərtilə), 15 balı isə yazılı üsulda keçirilən ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşdırılır.

**Qiyabi təhsil forması üzrə tələbələrin cari və aralıq qiymətləndirilməsi qaydası**

Qiyabi təhsilalma formasında təhsilin bütün illərində tələbələrin fənlər üzrə attestasiyası cari və aralıq qiymətləndirmə əsasında həyata keçirilir. Cari qiymətləndirmə üzrə toplam - 30 bal, aralıq qiymətləndirmə üzrə isə 70 bal aşağıdakı qaydada formalaşır:

Cari qiymətləndirmə üzrə - 30 balın 10 balı tələbələrin dərsə davamiyyət səviyyəsinə görə, 20 bal isə mühazirə-məşğələ sessiyası müddətində tədris olunan fənlər üzrə eyni gündə keçirilən ara qiymətləndirmə əsasında formalaşdırılır. Ara qiymətləndirmə zamanı tələbələrə hər fənn üzrə 10 sual verilir və onların hər biri 2 bal nisbətində hesablanır. Səhv cavablandırılmış testlər düz cavablara təsir etmir.

Ara qiymətləndirmə üçün tələbələrə hər bir fənnə 10 dəqiqə nisbətində (UNEC Elmi Şurasının qərarı ilə fərqli vaxt müddətləri müəyyən edilən fənlər istisna olamqla) ümumi vaxt verilir. Verilən ümumi vaxtın (məs. 3 fənnə görə 30 dəqiqənin) fənlər üzrə müxtəlif nisbətlərdə (məs. 1-ci fənnə 12 dəqiqə, 2-ci fənnə 8 dəqiqə, 3-cü fənnə 10 dəqiqə) istifadə olunması hər bir tələbənin özü tərəfindən müəyyən olunur. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Üzrlü ara qiymətləndirmə eyni qaydada aralıq qiymətləndirmə başlayana qədər keçirilir.

Aralıq qiymətləndirmə üzrə 70 bal - yalnız test üsulunda keçirilən sessiya imtahanı əsasında formalaşdırılır. Bu imtahanlarda tələbələrə 50 test tapşırığı təqdim olunur və onların hər biri 1,4 bal təmin edir. Səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Qiymətləndirmə zamanı hər bir tələbəyə UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilən vaxt müddəti verilir.

Üzrlü aralıq qiymətləndirmə imtahanları sessiya bitdikdən sonra növbəti semestr başlayana qədər (akademik təqvimlə müəyyən edilir) keçirilir.

**Sərbəst işlər (qrup işi): nəzərdə tutulmayıb**

## TƏCRÜBƏ

Bu fənn üzrə istehsalat təsrübəsi yalnız ixtisas qrupları üzrə nəzərdə tutulub.

| № | Mövzu | Sualın mətni |
|---|---|---|
| **1.** | 01 | Tədqiqatın mahiyyətini açıqlayın və məqsədlərini göstərin |
| **2.** | 01 | Kəmiyyət və keyfiyyət tədqiqatlarını səciyyələndirin |
| **3.** | 01 | Sosial tədqiqatların aparılması məqsədlərini sadalayın və əsaslandırın. |
| **4.** | 01 | Sosial tədqiqatın növlərini sadalayın və şərh edin |
| **5.** | 01 | Sosial reallığın tədqiqində statistik yanaşmanı səciyyələndirin |
| **6.** | 01 | Sosial reallığın tədqiqində humanitar yanaşmanı izah edin |
| **7.** | 01 | Statistik və humanitar yanaşmaların kəmiyyət və keyfiyyət göstəricilərini müqayisəli təhlil edin |
| **8.** | 01 | Statistik və humanitar paradiqmalarda tədqiqat strategiyalarını şərh edin |
| **9.** | 01 | Sosial tədqiqatlarda daha çox işlədilən anlayışların empirik interpretasiyasını verin |
| **10.** | 02 | Obyektin xüsusiyyətlərinin öyrənilməsində sualların məntiqi zəncirini şərh edin |
| **11.** | 02 | Obyektin xüsusiyyətlərinin öyrənilməsinin alternativ variantlarını izah edin |
| **12.** | 02 | Tələbələrin maddi təminat və siyasi fəallıq kimi xüsusiyyətinin öyrənilməsi modelini şərh edin |
| **13.** | 02 | Bakı şəhərinin rayonlarının nüfuzluluq xüsusiyyətinin öyrənilməsi modelini şərh edin |
| **14.** | 02 | Obyektin xüsusiyyətlərinin öyrənilməsində modelin əhəmiyyəti haqqında məlumat verin |
| **15.** | 03 | Sosial tədqiqatlarda informasiyanın tiplərini və onların təsnifatının ümumi əsaslarını izah edin |
| **16.** | 03 | Sadə strukturlu anketlər vasitəsilə alınan məlumatların ümumi izahını verin |
| **17.** | 03 | Mürəkkəb strukturlu anketlər vasitəsilə alınan məlumatları şərh edin |
| **18.** | 04 | Vaxt büdcəsinin istifadəsi ilə bağlı məlumatları səciyyələndirin |
| **19.** | 04 | Sosial tədqiqatlarda mətn məlumatlarının təhlili ilə bağlı situasiyaları və yanaşmaları şərh edin |
| **20.** | 04 | Kontent təhlilin mahiyyətini və sosial işdə ondan istifadə imkanlarını izah edin |
| **21.** | 04 | Kontent təhlil metodikasının mərhələlərini sadalayın və onların tətbiqi qaydalarını izah edin |
| **22.** | 05 | Sosial tədqiqatda ölçmənin mahiyyətini və təhlillə qarşılıqlı əlaqəsini izah edin |
| **23.** | 05 | Sosial tədqiqatda şkalanın tətbiqinin əhəmiyyətini, onun növlərini və tiplərini səciyyələndirin |
| **24.** | 05 | Ölçmənin empirik indikatorlarını və kodlaşdırmanı əlaqələndirin |
| **25.** | 05 | Sosial tədqiqatda psevdometrikliyin mahiyyətini açıqlayın |
| **26.** | 05 | ”Sosioloji sıfır” problemini şərh edin |
| **27.** | 06 | Ölçmə üsulu və empirik informasiyanın təhlilinin tərkib hissəsi kimi indekslərin xarakteristikasını verin |
| **28.** | 06 | Qrupun bərabərsizləşdirilməsi üçün tətbiq olunan indeksləri sadalayın və əlaqələndirin |
| **29.** | 06 | Sosial tədqiqatda məntiqi kvadrat və məntiqi düzbucaqlıdan istifadə qaydalarını şərh edin |
| **30.** | 06 | Yekun qiymətlər şkalasının tərtibi prosedurunu izah edin |
| **31.** | 06 | Vaxt büdcəsində, dövlət statistikasında və mətn informasiyasında verilən indeksləri sadalayın və xarakterizə edin |
| **32.** | 07 | Sosial tədqiqatda Lui Terstoun şkalasının tətbiqi qaydasını açıqlayın |
| **33.** | 07 | Sosial tədqiqatda Emari Boqardus şkalasının açıqlamasını verin |
| **34.** | 07 | Sosial tədqiqatda Lui Quttmanın şkaloqram təhlilini səciyyələndirin |
| **35.** | 07 | Laykert və Terstoun şkalalarının oxşar və fərqli cəhətlərini göstərin |
| **36.** | 07 | Boqardus və Quttman şkalalarının oxşar və fərqli cəhətlərini göstərin |
| **37.** | 08 | Ranjirləmənin mahiyyətini, əsaslarını və obyektlərini şərh edin |
| **38.** | 08 | Ranjirləməni təhlilin tərkib hissəsi və ölçmə üsulu kimi səciyyələndirin |
| **39.** | 08 | Birbaşa ranjirləmə metodunun mahiyyətini şərh edin və prakriki nümunə göstərin. |
| **40.** | 08 | Terstounun cüt-cüt müqayisə metodunu praktiki nümunə əsasında səciyyələndirin |
| **41.** | 08 | Tranzitivliyin mahiyyətini izah edin və onu müqayisə metodları ilə əlaqələndirin. |

| | | |
|---|---|---|
| **42.** | 09 | Sosial tədqiqatlarda psixosemantik metodu ölçmə və təhlil üsulu kimi səciyyələndirin |
| **43.** | 09 | Ç.Osqudun semantik differensialı(qüvvə, aktivlik, münasibətlər) metodunu praktiki nümunə əsasında şərh edin |
| **44.** | 09 | .Tamamlanmış cümlə metodunu nümunə əsasında sosial stereotiplərin öyrənilməsi üsulu kimi şərh edin. |
| **45.** | 09 | "20 Mən" testini nümunə əsasında şəxsiyyətin özünü identifikasiyası üsulu kimi səciyyələndirin |
| **46.** | 10 | Mənəvi- psixoloji diaqnostikanın mahiyyətini şərh edin |
| **47.** | 10 | Psixoloji korreksiya ilə bağlı araşdırmaları xronoloji ardıcıllıqla şərh edin |
| **48.** | 10 | Psixoloji korreksiyanın effektivliyinin müəyyən edilməsi meyarlarını və göstəricilərini şərh edin |
| **49.** | 10 | Korreksiya metodikaları və texnikalarının qarşılıqlı şəkildə tətbiqi tətbiqi prosedurlarını şərh edin |
| **50.** | 10 | İctimai təşkilat olan "Psixoloji Mərkəz"in fəaliyyətini səciyyələndirin |
| **51.** | 11 | İdarəetmə metodlarının mahiyyətini şərh edin və onların təsnifatına aydınlıq gətirin |
| **52.** | 11 | İdarəetmənin iqtisadi metodlarının mahiyyətini şərh edin və təsnifatını səciyyələndirin. |
| **53.** | 11 | İqtisadi idarəetmə metodunun tətbiqinin tənzimləyici vasitələrini sadalayın və şərh edin |
| **54.** | 11 | İdarəetmənin inzibati metodunun mahiyyətini və əsas xüsusiyyətlərini şərh edin |
| **55.** | 11 | İnzibati idarəetmə metodunun funksiyalarını sadalayın və şərh edin |
| **56.** | 11 | İdarəetmədə sərəncam metodununun mahiyyətini və onun tətbiqi alətlərini şərh edin |
| **57.** | 12 | Sadə və mürəkkəb sistemlərin mahiyyətini və təsnifatını səciyyələndirin |
| **58.** | 12 | R. Flad və M. Ceksonda sistem analizinin metodologiyasını əlaqəli şəkildə səciyyələndirin |
| **59.** | 12 | V.Çerçmenin strateji qənaətlər metodologiyasının tətbiqi alqoritmini şərh edin. |
| **60.** | 12 | V.Ulrixin tənqidi sistemlər metodologiyasını şərh edin |
| **61.** | 12 | Sistem analizinin nəticələrinin tətbiqi problemlərinə yanaşmaları göstərin və şərh edin |
| **62.** | 13 | Fokus qrupların mahiyyəti və formalaşdırılması xüsusiyyətlərini şərh edin |
| **63.** | 13 | Fokus-qrup görüşlərinin məqsəd və vəzifələrini sadalamaqla şərh edin . |
| **64.** | 13 | Fokus- qrup çalışmasının tətbiqi növlərini sadalayın və şərh edin |
| **65.** | 13 | Fokus-qruplarda moderatorın seçilməsi qaydasını və onun vəzifələrini səciyyələndirin |
| **66.** | 13 | Fokus-qruplarda istifadə edilən xüsusi metodları sadalayın və şərh edin |
| **67.** | 14 | Fokus-qruplarda müsahibə və onun formalaşdırılması xüsusiyyətlərini izah edin |
| **68.** | 14 | Ətraflı müsahibəni zəruri edən halları sadalayın və şərh edin |
| **69.** | 14 | Ətraflı müsahibə zamanı sorğunun aparılması qaydasını alqoritmik şəkildə izah edin |
| **70.** | 14 | Müsahibələrin aparilmasi üçün vəsaitin işlənib hazirlanmasi və yoxlamanın aparılması prosedurunu nümunə əsasında şərh edin. |
| **71.** | 15 | .Ekstremal vəziyyətlərdə emosiya, münaqişə və böhran problemlərini və onların həlli yollarını göstərin |
| **72.** | 15 | Ruhi-əsəb gərginliyi vəziyyəti kimi stress və frustrasiyanın mahiyyətini şərh edin |
| **73.** | 15 | Emosiyanın mahiyyətini, ifadə vasitələrini və funksiyalarını izah edin |
| **74.** | 15 | Ali hisslərin mahiyyətin şərh edin və təsnifatını verərək, səciyyələndirin |
| **75.** | 15 | Hisslərin mahiyyətini və funksiyalarını şərh edin |

**TƏRTİB ETDI:** **dos. İbrahim Qədim oğlu Quliyev**

**"Ictimai idarəetmə və sosial innovasiyalar"**

**kafedrasının müdiri:** **i.f.d., dos.Məmmədov E.Q.**